*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 avqust 2018-ci il № 60 (2276) Qiymәti 25 qəpik


*Ön xətdən reportaj*

# “Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir”



Azərbaycan Ordusunun yaranmasından 100 il ötür. Daim inkişafda olan ordumuzun bu gün dünyanın ən güclü orduları sırasında olması həm ölkə daxilində, həm də dünya miqyasında göz qabağındadır. Keçirilən irimiqyaslı təlimlər, beynəlxalq ordu yarışlarında hərbçilərimizin qazandığı nailiyyətlər və 2016-cı ilin aprelin əvvəllərində düşmən qüvvələri üzərində inamlı qələbəmiz bunun sübutudur. Bu gün ordumuz güclü maddi-texniki bazaya, müasir silah və texnikaya malikdir. Lakin ordumuzun güc mənbəyi mübarizləşən, dövlətçiliyinə bağlı olan, ürəyi Vətən sevgisi ilə döyünən şəxsi heyətindədir. Ordu sıralarında xidmət edən hər bir zabit, gizir və əsgər Vətəni qorumağı özünə şərəf borcu bilir, torpaqlarımızın keşiyində inamla dayanırlar. Onların hər biri yaxşı dərk edir ki, Vətəni qorumaqla müqəddəs vəzifə yerinə yetirir. Vəzifələrinin öhdəsindən uğurla gəlmək üçün var qüvvələri ilə çalışır, Vətəninə bağlı olmağa and içirlər. İstənilən şəraitdə və iqlimdə çətinlik bilmədən torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar. Onların bir amalı var - nümunəvi xidmət etmək, Ali Baş Komandanın göstərdiyi etimadı doğrultmaq, hər an döyüş əmrinə hazır olmaq.

Vətənin keşiyində inamla dayanan belə mərd oğullarla "N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsində görüşürük. Bölmədə xidmətin düzgün təşkili ilk andan hiss olunurdu. Onlarla keçirdiyimiz vaxtda şahidi olduq ki, şəxsi heyətin hərbi bilikləri, nizam-intizamları, döyüş və mənəvi-psixoloji hazırlıqları yüksəkdir.

“Bölmədə qarşılıqlı münasibətlər nizamnamələr çərçivəsində tənzimlənir. İstər komandir-əsgər, istərsə də əsgər-əsgər arasında sağlam ünsiyyət mühiti formalaşıb. Onlara tapşırılan postu inamla qorumaq, düşmənə keçilməz sipər olmaq üçün yumruq kimi birləşib, uğurlu xidmət edirlər. Döyüş hazırlığı ilə yanaşı, öncül vəzifələrimizdən biri də şəxsi heyət arasında sağlam mühit formalaşdırmaqdır", - leytenant Elvin Tağıyev deyir. Əslən Tovuz rayonundan olan zabit 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Zabit doğulub böyüdüyü kəndin bu peşə seçiminə təsiri olduğunu bildirir:

- Yaşadığımız kənd düşmənlə təmas xəttində yerləşir. Xain qonşularımızın atəşkəsi pozması nəticəsində atılan mərmilər dəfələrlə evlərimizə tuş gəlirdi. Düşmənin ordumuz qarşısında acizliyinin nəticəsidir ki, həmişə evləri nişan alırdılar. Elə o vaxtlardan mən qərar vermişdim ki, hərbçi olacam. Dinc əhalimizə mərmi yağdıran düşmən qarşısında dayanıb, onları susdurmaq idi məqsədim. Hal-hazırda arzuma çatmışam, burada xidmətimi uğurla davam etdirirəm. Komandir kimi şəxsi heyətə nümunə olmağa çalışıram ki, əsgərlərim də nümunəvi xidmət etsinlər. Tələbkarlıqla yanaşı, onlara doğma münasibət bəsləyir, qayğıları ilə yaxından maraqlanıram. Əminliklə deyə bilərəm ki, şəxsi heyətin həm döyüş ruhu, həm də mənəvi-psixoloji hazırlığı yüksəkdir. Hər biri xidmətinə sevgi ilə yanaşır, verilən tapşırıqların öhdəsindən məsuliyyətlə gəlirlər. Döyüş növbətçiliyində diqqətli olur, düşmənin bütün fəaliyyətinə nəzarət edirlər. Onların xidmətlərinə belə bağlılıqları, sevgiləri, vətənpərvərlikləri mənə də ruh yüksəkliyi aşılayır. Seçdiyim peşə ilə və belə mərd oğullarla bir arada torpaqlarımızı qorumaqdan qürurlanıram.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Cəbhəboyu zonada HHQ-nin yeni hərbi hissəsinin açılışı olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 4-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov HHQ-nin cəbhəboyu zonada yeni inşa edilən hərbi hissəsinin açılışında iştirak edib, şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub.

Müdafiə Nazirliyinin rəhbərliyi həmçinin ərazidəki qərargah binası, əsgər yataqxanası, tibb məntəqəsi, yeməkxana, sinif otaqları, mətbəx, ərzaq və əşya anbarı, qazanxana, sıra meydanı, nəzarət-buraxılış məntəqəsi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Ali Baş Komandanın ordu quruculuğu sahəsində qarşıya qoyduğu vəzifələri şəxsi heyətin diqqətinə çatdıran Müdafiə naziri döyüş hazırlığının səviyyəsinin daha da artırılması ilə bağlı komandanlığa konkret tapşırıqlar verib.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birgə nahar edib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## "Açıq qapı" günü və andiçmə mərasimi keçiriləcək

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, avqustun 12-də bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçiriləcək.

Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər.

"Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq və mədəni-kütləvi tədbirlər keçiriləcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 avqust 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 80 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Kəngərli, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# "Güclü ordunun əsgəri olmaq şərəfdir"

*Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin döyüş təcrübəsinin, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsi başlıca vəzifələrdən biridir. Məqsəd dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasının təminatçısı rolunda çıxış edən ordunun şəxsi heyətinin döyüş və vətənpərvərlik ruhunun yüksək olmasına nail olmaqdır. Əsgərlərin aparıcı qüvvə olaraq ordunun yükünü öz üzərində daşımalı olacağını nəzərə alanda, sözügedən məsələyə son dərəcə məsuliyyətlə yanaşmaq reallığı ortaya çıxır. Azərbaycanın müharibə vəziyyətində olması da tələb edir ki, şəxsi heyətin döyüş qabiliyyətinin formalaşması diqqət mərkəzində saxlanılsın.*



Təsadüfi deyil ki, Azərbaycan Ordusunda daimi olaraq qarşıya qoyulan ən əsas məsələlərdən biri döyüş qabiliyyətinin artırılmasıdır. Mütəmadi olaraq keçirilən hərbi təlimlər ordumuzun müasir döyüş vərdişlərinin artırılmasına xidmət edən vasitələrdən biridir. Azərbaycan Ordusunun 2018-ci il üçün hazırlıq planına əsasən bu il də qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində "Ən yaxşı planşetçi" müsabiqəsi keçirilib və qaliblər müəyyənləşib.

Müsabiqənin yekununa görə birinci yerin sahibi əsgər Kamil Yolçuyevlə "N" hərbi hissəsində görüşüb yarış barədə təəssüratlarını öyrənirik.

Əsgər Kamil Yolçuyev bildirdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü ordularından biridir: "Bir əsgər kimi məni sevindirən odur ki, ordumuzun adı dünyanın güclü orduları sırasında çəkilir. Mən də bu gün güclü bir ordunun əsgəriyəm. Güclü ordunun əsgəri olmaq şərəfdi. Bizim əsgər kimi borcumuz qarşımıza qoyulan etimadı doğrultmaq, torpaqlarımızı işğaldan azad etməkdi. Keçirilən bu təlimlərin də əsas məqsədi bizləri döyüş vəziyyətinə tam hazırlamaqdı. Azərbaycan əsgəri kimi istənilən döyüşə hazırıq".

"Etiraf edim ki, qalib olacağımı güman etmirdim. Hərbi hissə və birləşmələr tərkibində keçirilən yarışların birincisi olmağıma baxmayaraq, sonuncu mərhələ daha məsuliyyətli və çətin idi. Təbii ki, yarışa qatılanda ilk üçlüyə düşəcəyimə ümid edirdim. Ancaq müsabiqənin birincisi olacağımı gözləmirdim. Birinci olmaq daha şərəfli və daha məsuliyyətlidi", - deyə əsgər Kamil Yolçuyev bildirdi.

Əsgər Kamil Yolçuyev onu da qeyd etdi ki, yarış həm nəzəri, həm praktiki, həm də fiziki mərhələlərdən ibarət oldu: "Yarış həyəcan siqnalının verilməsi ilə başladı. Bir planşetçi kimi qarşımda duran əsas məsələ hədəfi tutma və onu izləmə prosesi idi. Sevinirəm ki, hər üç mərhələnin öhdəsindən layiqincə gəldim. Ancaq ən maraqlı mərhələ praktiki mərhələdir. Bu mərhələdə ilk olaraq lokator hədəfi "görür". Lokator vasitəsilə müəyyənləşdirilən hədəf planşet vasitəsilə izlənilir. Sonra hədəf barədə bütün məlumatlar dəqiqləşdirilir, kitabda qeydlər aparılır və məruzə edilir. Hər birimizin amalı torpaqlarımızın işğaldan azad edilməsidir."

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Yazıçı və şairlərimiz cəbhə bölgələrində

*Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü olan bir qrup yazıçı və şair cəbhə bölgəsinə səfər edib. Tədbir Azərbaycan Yazarlar Klubu İctimai Birliyinin "Canımız Qarabağ, yazımız Qarabağ -3" layihəsi çərçivəsində reallaşıb.*



AYB-dan AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində ilk olaraq Beyləqan rayonunda məskunlaşmış xocavəndli qaçqınlarla görüş keçirilib.

Görüşdə AYB sədrinin layihələr üzrə müşaviri, Azərbaycan Yazarlar Klubunun sədri, yazıçı-dramaturq Elçin Hüseynbəyli, AYB hərbi vətənpərvərlik bölməsinin rəhbəri, şair-bəstəkar Şahin Musaoğlu, Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin əlaqələndiricisi, şair İlqar Türkoğlu, yazıçı Ədəm Kəngərli, AYB Beyləqan regional bölməsinin rəhbəri Asif Cəfərli, yerli şair və yazarlar iştirak ediblər.

Tədbiri Xocavənd rayon İcra Hakimiyyəti başçısının müavini Azər Süleymanov açıb və sənət adamlarının məcburi köçkünlərlə görüşünün əlamətdar, yaddaqalan bir hadisə olduğunu bildirib.

Elçin Hüseynbəyli öz çıxışında layihənin məqsədi barədə məlumat verib. O bildirib ki, layihə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı əsasında keçirilir, məcburi köçkünlərə, ordumuza dəstək və Qarabağ uğrunda müqəddəs savaşımıza yazarlar tərəfindən töhfə vermək məqsədi daşıyır.

Yazıçı onu da vurğulayıb ki, "Canımız Qarabağ, yazımız Qarabağ!" şüarı da təsadüfi seçilməyib. "Yazımız" deyəndə həm ordumuzun 2016-cı ilin aprel (yaz) və 2018-ci ilin may (Şərurun Günnüt kəndinin azad edilməsi) zəfəri, həm də qələmlə, sözümüzlə düşmənə qarşı vuruşmaq nəzərdə tutulur. Yazıçı onu da xatırladıb ki, oxşar tədbir 3-cü ildir ki, keçirilir. Bundan əvvəl yazarlar digər cəbhə bölgələrində də olublar. Növbəti layihənin Naxçıvanın cəbhə bölgələrində, eləcə də ölkəmizin düşmənlə digər sərhəd bölgələrində keçirilməsi planlaşdırılır.

Bakıdan gələn qonaqlar yurd həsrəti çəkən soydaşlarının dərdinə şərik olduqlarını deyib və bu ruhda şeirlər səsləndiriblər.

Həmin gün axşam yazarlar "N" hərbi hissəsinə gediblər. Zabit və əsgərlər qarşısında çıxış edən yazarlar Azərbaycan Ordusunun getdikcə gücləndiyini və yaxın zamanlarda düşmən üzərində qələbə çalacağına inandıqlarını dilə gətiriblər.

Şair-bəstəkar Şahin Musaoğlu: "Mürəkkəb şəhid qanı qədər əzizdir və mən inanıram ki, həmin qanla və mürəkkəblə biz qələbəni bir yerdə qeyd edəcək və dastanlar yazacağıq!" - deyə əsgərləri qələbəyə səsləyib.

Sonra qələm adamları laçınlıların məskunlaşdığı ərazidə olublar.

Yeni Azərbaycan Partiyası rayon təşkilatının akt salonunda keçirilən görüşü Laçın rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Cabir Əvəzzadə açıb. O qeyd edib ki, yazarların bu gəlişi onlara ruh verir və insanları qürurlandırır.

Layihə rəhbəri Elçin Hüseynbəyli dövlətimizin məcburi köçkünlərə qayğısından danışıb: "Yerindən-yurdundan məcburi qaçqın, köçkün düşmüş insanlara dövlət qayğısı artmaqdadır. Ancaq onlara nə cür gözəl şərait yaratsan da, gözləri öz doğma torpaqlarındadır. Bizim özgənin torpağında gözümüz yoxdur. Biz ədalət istəyirik. Ədalət isə torpaqlarımızın azadlığından keçir!"

Görüşlərdə Şahin Musaoğlunun bəstəsində artıq hitə çevrilmiş "Cənab leytenant", "İgid əsgər möhkəm dayan" mahnıları səsləndirilib.

Tədbirin axırında yazarlar görüş iştirakçılarına Qarabağ döyüşçüləri və şəhidləri haqqında mindən artıq kitab və disklər hədiyyə ediblər və xatirə şəkli çəkdiriblər.

# “Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir”





(Əvvəli 1-ci səhifədə)

Söhbət zamanı zabit 100 yaşını qeyd edən şanlı ordumuzun gücünü və qüdrətini bir daha vurğuladı. “Xidmətim boyunca şahidi oluram ki, ordumuzun istənilən bölməsində Vətəninə, dövlətçiliyinə bağlı oğullar xidmət edirlər. Belə oğulları gördükcə əmin olursan ki, Ali Baş Komandanın rəhbərliyi ilə tezliklə ərazi bütövlüyümüzə qovuşacağıq...”

Döyüş növbəsindən qayıdan əsgər Rahil Quliyevlə salamlaşdım. Əsgər bildirdi ki, hərbi xidmətə Tərtər rayonundan çağırılıb. “Arzu edirəm ki, torpaqlarımızın geri qalan hissəsini işğaldan azad edib, Böyük Qələbə münasibəti ilə birbirimizi təbrik edək. Xalqımız əmin olsun ki, biz buna hər an hazırıq və qadirik", - əsgər R.Quliyev dedi.

Hərbi xidmətə Qax rayonundan çağırılan əsgər Eşqin Seyidli düşməndən qat-qat güclü olduğumuzu bildirdi:

- Həm aprel döyüşləri, həm də Günnüt zəfəri ilə sübut etdik ki, yağılardan güclüyük. Döyüş meydanında bizə məğlub oldular. Bu qələbələrimiz Qarabağımıza gedən yolda mayak oldu. 100 illik yubileyimizdə keçirilən möhtəşəm paradda iştirak etməsək də, televizordan izlədik. Bir gənc kimi, Azərbaycan Ordusunun əsgəri olmağımla fərəhləndim. Bizə sonsuz güvənc, sevgi və ehtiram nümayiş etdirən xalqımız ruh yüksəkliyimizi daha da artırdı. Hər kəs əmin olsun ki, Qarabağımızda da belə bayramları qeyd edəcəyik. Bu zəfəri yaşatmağa mən və bütün əsgər yoldaşlarım daim hazırıq. Döyüş əmri olarsa, xalqımızın güvəncinə arxalanıb, düşməni doğma yurd-yuvamızdan qovacağıq.

Əsgərlərin söylədikləri fikirlər ordu-cəmiyyət münasibətlərinin döyüş hazırlığının artırılmasında önəmini bir daha nümayiş etdirdi və göstərdi ki, ölkəmizdə istər dövlət, istərsə də özəl müəssisələr tərəfindən orduya daim diqqət və rəğbət bəslənilir. Bunların hamısı ölkə başçısının orduya diqqət və qayğısının sübutudur...

Əsgər Sərxan Məhərrəmov hərbi xidmətə Cəlilabad rayonundan çağırılıb. Onun iki qardaşı da ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edir.

- Komandirin tapşırığına əsasən müşahidə postunda olarkən düşmən mövqelərindən bir an da olsa gözümü ayırmıram. Vəzifəmin vacibliyini yaxşı başa düşür, maksimum diqqətli olmağa çalışıram. Təhlükəli istiqamətləri xüsusi nəzarətdə saxlayıram. Komandanlıq tərəfindən bizə yüksək diqqət və qayğı göstərilir. Heç nədən korluq çəkmirik. Valideynlərimiz bizdən nigaran qalmasınlar, burada ailə mühitində xidmət edirik. Bir gənc üçün səngərdə dayanmaq, Vətənini yağılardan qorumaq ən şərəfli xidmətdir. Fəxr etsinlər ki, oğulları səngərdə dayanıb, Vətən keşikçisidir.

Belə vətənpərvər, mərd oğullarla necə fəxr etməyəsən. Vətənini anası bilən, onu göz bəbəyi kimi qoruyan, bu yolda düşünmədən canlarını qurban verməyə hər an hazır olan bu igidlər hər birimizin qürur mənbəyidir. Halal olsun, sizi böyüdən, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edən valideynlərə.

Əsgərlər - Səlim Məmmədov, Kamran Abdullayev və söhbətləşdiyim digərləri də əmin edirlər ki, cəbhəboyu mövqelərimizi inamla qoruyur və istənilən döyüş tapşırığını yerinə yetirməyə hər an hazırdırlar. "İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazırıq. Silahlardan istifadə etməyi, döyüş taktikasını yaxşı öyrənmişik. Keçirilən təlimlərdə təcrübəmizi daha da artırırıq. Bizim bacarıqlı əsgərlər kimi formalaşmağımızda komandirlərimizin böyük zəhməti var. Hər birimiz var qüvvəmizlə çalışırıq ki, onların hərbi biliklərindən, təcrübələrindən bəhrələnək, döyüş hazırlığımızı artıraq. Torpaqlarımızın keşiyində möhkəm və inamla dayanıb, Ali Baş Komandanın, Müdafiə nazirinin bizlərə olan etimadını doğrultdaq".

Vətən sevgisindən güc alan bu igidlərin hər biri tarix yazmaq üçün Ali Baş Komandanın əmrini gözləyirlər. 2016-cı ilin aprelindəki qələbəmiz, bu ilin may ayındakı Günnüt zəfəri düşmənə bir daha sübut etdi ki, Azərbaycan Ordusu yenilməzdir. Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyi münasibətilə keçirilən möhtəşəm paradda Ali Baş Komandan İlham Əliyevin "Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır" sözləri də bir daha sübutdur ki, tezliklə əsgərlərimiz Böyük Qələbənin əsgərləri olacaqlar.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan tankçıları "Tank biatlonu-2018" müsabiqəsinin yarımfinalına çıxıblar



*Azərbaycan tankçıları "Tank biatlonu-2018" müsabiqəsində yarımfinala çıxıblar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində keçirilən "Tank biatlonu-2018" müsabiqəsinin yarımfinal mərhələsinin püşkatması keçirilib. Püşkatmanın nəticələrinə görə, Azərbaycan tankçıları yarımfinalda Çin, İran və Qırğızıstan tankçıları ilə yarışacaqlar.

# "Dəniz Kuboku-2018" müsabiqəsində növbəti epizod yerinə yetirilib



"Dəniz Kuboku-2018" müsabiqəsinin yeni yarış həftəsi zamanı Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi dənizçiləri müsabiqənin "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələdə "Xilasetmə vasitələrinin istifadəsi" tapşırıqlarını yerinə yetiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələdə Rusiya komandası birinci, Azərbaycan HDQ-nin komandası ikinci, İran komandası üçüncü, Qazaxıstan komandası isə dördüncü yerə layiq görülüb.

Yarışların ümumi nəticəsinə görə, hal-hazırda Azərbaycan HDQ-nin komandası 2-ci yerdə qərarlaşıb.

"Dəniz Kuboku-2018" müsabiqəsinin növbəti mərhələsində "Üzən minaya artilleriya atışı" epizodu icra ediləcək.

# Azərbaycan artilleriyaçıları "Artilleriya atəşinin ustaları-2018" müsabiqəsinin finalına yüksəliblər

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 6-da "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçirilən "Artilleriya atəşinin ustaları-2018" müsabiqəsinin yarımfinal mərhələsində Azərbaycan artilleriyaçıları yüksək nəticələr göstərərək müsabiqənin finalına yüksəliblər.

Müsabiqənin final mərhələsi bu gün keçiriləcək.

# Jurnalistlər ekstremal şəraitdə də işləməyi öyrənirlər

*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi və Müdafiə Nazirliyinin tərəfdaşlığı ilə Milli təhlükəsizlik və müdafiə tələblərinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərdə hərbi sahəyə aid məxfi məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaq, hərbi qulluqçuların və kütləvi informasiya vasitələri nümayəndələrinin təcrübə və vərdişlərini formalaşdırmaqla hüquqi-maarifləndirmə biliklərini artırmaq məqsədilə "Dinc Dünya" Araşdırma Mərkəzinin icra etdiyi "Konflikt jurnalistikası məktəbi"nin növbəti təlim-tədris ilinin təşkili layihəsi çərçivəsində tədbir keçirildi.*

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin birgə təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi"nin "Çöl şəraitində sağ qalma prinsipləri" mövzusunda "Azərbaycan Ordusu" qəzeti redaksiyasında auditoriya təlimi keçirildi.

"Dinc Dünya" Araşdırma Mərkəzinin sədri Əlisafa Mehdiyev "Konflikt jurnalistikası məktəbi"ndən söz açaraq bildirdi ki, məqsəd müharibə şəraitində və döyüşlərdə vətəndaşlara baş verən hadisələr haqqında düzgün və dolğun informasiya çatdırmaqdır. "Müharibə şəraitində jurnalistlər ekstremal şəraitdə işləməli olurlar. Onların çoxunun belə şəraitdə fəaliyyət göstərmək üçün müvafiq təcrübəsi olmadığından, ötürülən informasiyalar bəzən düşmənin işinə yarayır. Həmçinin, döyüşlər zamanı təhlükəsizlik qaydalarına riayət etməmələri, diqqətsiz davranışları ağır nəticələrə gətirib çıxara bilər. Layihə ekstremal şəraitdə işləyən jurnalistlərin özünü qoruması, düzgün informasiya alıb cəmiyyətə çatdırılmasının öyrədilməsi məqsədini daşıyır. Jurnalistlərin bu istiqamətdə təcrübə toplaması olduqca vacibdir. Layihə müddətində onlar hərbi jurnalistikanın incəliklərini öyrənəcəklər. Eyni zamanda, məqsəd mediada milli təhlükəsizliyə xələl gətirən informasiyaların yayılmasının qarşısının alınmasıdır".

Təşkilat sədri onu da qeyd etdi ki, təlim zamanı jurnalistlərə düşmənlə təmas xətti ilə ümumi tanışlıq, döyüşən tərəflərin imkanları, tapşırıqları və fəaliyyət növləri, döyüş səhnəsində mümkün təhlükələr, ekstremal vəziyyətdə təhlükəsizlik tədbirləri, döyüş fəaliyyəti rayonunda hərəkət qaydaları, ərazinin relyefindən və fortifikasiya qurğularından istifadə, döyüşə hazırlıq və döyüşün gedişi zamanı müşahidə üsulları, informasiya toplayarkən müxbirin, reportyorun düzgün davranış normaları, snayperdən, imitasiya vasitələrindən, gözlənilməz xəsarətlərdən özünü qorumaqla döyüş prosesini izləmə və informasiya toplama, minalardan və əldə hazırlanmış partlayıcı qurğulardan mühafizə xüsusiyyətləri, gecə müşahidə təlimi, yaralanma, əzilmə, bədbəxt hadisəyə uğrama zamanı davranış qaydaları, ilk yardım məşqləri, səhra şəraitində qidalanma qaydaları öyrədiləcəkdir.




Əlisafa Mehdiyev onu da vurğuladı ki, "Konflikt jurnalistikası məktəbi"nin təlimləri 4-cü ildir keçirilir. "İlk illərdə jurnalistlərin hərb sahəsində psixoloji hazırlığına önəm verilirdi. Daha sonra səngərlərdə xidmət apararan əsgərlərlə yaxından tanışlığımız oldu. Bu il təlim-tədris proqramı 3 mərhələdən ibarətdir: Birinci mərhələdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin auditoriyasında jurnalistlər hərb sahəsi ilə yaxından tanış olaraq mütəxəssis və müəllimlər tərəfindən çöl şəraitində sağ qalmağın sirlərini, ikinci mərhələdə hadisə yerində davranış qaydalarını mənimsəyirlər. Üçüncü mərhələdə isə 10 gün ərzində toplanan informasiyaların yayılması zamanı dövlətimizin və xalqımızın mənafeyinin qorunması məsələsinə diqqət yetiriləcək.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev düşmənlə təmas xəttində baş verən hadisələrin ictimaiyyətə ilk mənbədən, doğun və dəqiq çatdırmağın vacibliyini vurğuladı. Zabit onu da bildirdi ki, əvvəllər yaranmış problemlərə yol verməmək üçün jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimat hazırlanıb və hərbi hissələrə göndərilib. Zabit bildirdi ki, Müdafiə Nazirliyi informasiyanın mediaya ötürülməsi üçün zəruri işlər görülüb və jurnalistlər hərbi hissələrə getmək üçün qeydiyyatdan keçirilib.

Layihə rəhbərinin köməkçisi Teymur Zahidoğlu qeyd etdi ki, "Konflikt jurnalistikası məktəbi"nin yaradılması həm də Azərbaycan Respublikasının bugünkü dönəmində sosial sifariş olaraq da qəbul edilə bilər. "Birinci Qarabağ müharibəsindən sonra informasiya baxımından uduzmağımız, istər qarşı tərəflə, istərsə də dünya mediası ilə ayaqlaşa bilməməyimiz, eyni zamanda müasir dövrdə Qarabağ bölgəsində baş verən hadisələrdə Azərbaycan cəmiyyətinin informasiya tələbatının ödənilməsi və yaxud ötürülən informasiyanın yanlış olması "Konflikt jurnalistikası məktəbi"nin yaranmasının zərurətini ortaya çıxartdı. Bəzi kütləvi informasiya vasitələri cəbhə bölgəsinə əməkdaşlarını göndərmədən baş verən hadisələr haqqında xəbərlər yaymağa başladılar. Belə hərəkətlər qeyri-peşəkarlığın nəticəsiydi. İctimaiyyətin doğru informasiya ilə təmin edilməsi üçün peşəkar media nümayəndələrinə ehtiyac olacaqdır. "Konflikt jurnalistikası məktəbi"nin yaranmasının əsas məqsədlərindən biri də peşəkar media mənsublarının, stringerlərin, reportyorların yetişdirilməsidir. Onu da qeyd edim ki, hərbi sahədən yazan jurnalistlərin bəziləri hərb anlayışından məlumatsızdır. Ona görə də "Konflikt jurnalistikası məktəbi"nin təlimlərində, kurslarında, mühazirələrində iştirak edən hər bir həmkarımız yazacağı materiallara peşəkarcasına yanaşmanı öyrənəcəklər və nəticədə cəmiyyətə dolğun məlumat çatdıracaqlar".

Tədbir diskussiya ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərb tariximiz*

# Unudulmaz sərkərdə

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir.*



Kəngərlilər - Naxçıvanskilər nəsli də Əfşarlar, Qacarlar, Şıxlinskilər nəsli kimi Azərbaycanın sərkərdəlik tarixinə çoxlu sayda generallar bəxş edib.

Kəngərlilər nəslinin sonuncu generalı xan əsilli Cəmşid Naxçıvanski yunkerdən, sıravi əsgərdən sərkərdəliyədək yüksələrək ulu babalarının, atasının döyüş yolunu şərəflə, xüsusi hərbi istedad və bacarıqla davam etdirmişdir.

General Cəmşid Naxçıvanskinin anadan olmasının 123 ili tamam olur. Qırmızı terror qurbanının ölümündən isə 80 il ötür. Avqust ayı unudulmaz sərkərdənin taleyinə həm doğum, həm də ölüm tarixi kimi yazılıb. Bu da bir alın yazısı, bir taleyin qismətidir. O, 9 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olub, 26 avqust 1938-ci ildə Moskvada güllələnib.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli sərkərdə, Azərbaycanın ilk milli dağatıcı diviziyasının komandiri general Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Sərəncamda onun bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçməsi və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr verməsi və onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsindəki zəngin fəaliyyəti barədə fikirlər öz əksini tapmışdır.

Yaşadığı dövrün totalitar rejim qayda-qanunları general C.Naxçıvanskinin hərbi yaradıcılıqla dolu ömrünü yarıda qoydu... 43 illik həyatının 26 ilini hərb sənətinə həsr edən ölməz sərkərdə ömrünün ən parlaq çağında bolşevik terrorunun qurbanına çevrildi.

Kəngərlilər nəslinin tanınmış nümayəndəsi, Cümhuriyyət ordusunun alay, Sovet ordusunun diviziya komandiri C.Naxçıvanski nəsil şəcərəsində general-mayor II Kalbalı xanın oğlu Cəfərqulu xanın ailəsində dünyaya göz açmışdı. Qardaşları - III Ehsan xan, III Kalbalı xan, Davud xan, Teymur xan, bacısı Nazlı xanım Cəfərqulu xanın doğma övladları kimi şəcərədə yer alırlar. O dövrün adət-ənənələrinə uyğun olaraq, hərbi peşəyə yalnız zadəgan övladları cəlb olunurdular. Çünki onlarda sadiqlik, etibarlılıq göstəriciləri yüksək idi. Cəmşid də xan nəslinin nümayəndəsi, zadəgan övladı kimi hərb elminin sirlərinə dərindən yiyələnir. O, 7 illik Tiflis kadet məktəbini başa vurduqdan sonra 1915-ci ildə Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbinə daxil olur.

Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olan C.Naxçıvanski "Brusilov cəbhəsi"nin yarılmasında xidmətlərinə görə 4-cü dərəcəli "Müqəddəs George" ordeni ilə təltif olunur. Avstriya-Rumıniya cəbhəsində 3 dəfə yaralanan C.Naxçıvanski qəhrəman süvari zabiti kimi gümüş silahla mükafatlandırılır, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci dərəcəli Stanislav ordenlərinə layiq görülür.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşmasında görkəmli hərb xadimi C.Naxçıvanskinin də xidmətləri böyükdür. Rusiyada baş verən inqilablar orduya da təsirsiz ötüşmür. Cənub-Qərb cəbhəsinin dağılmasından sonra ştabrotmistr C.Naxçıvanski doğma Azərbaycana dönür və vətənpərvər zabit kimi müstəqilliyimiz uğrunda mübarizəyə qoşulur. Onun komandiri olduğu alay Gəncədə yerləşdirilir və Azərbaycan milli qoşun hissələrindən ibarət korpusa daxil edilir. Alay 1918-ci ilin yazında Kürdəmirdə gedən ağır döyüşlərdə və türk qoşun hissələri ilə birlikdə Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsində fəal iştirak edir. Sonralar C.Naxçıvanski öz tərcümeyihalında bu barədə yazırdı: "Bakı Kommunasının əsgərləri gedəndən sonra şəhərə ingilislər və Sentrokaspinin qoşunları soxuldular. Mənim alayım ingilislərlə döyüşürdü. Hətta o vaxt 2 şotland rotasını əsir tutdum."

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 24 mart 1920-ci il tarixli əmriylə 1-ci süvari tatar (azərbaycanlılar) alayının komandiri podpolkovnik C.Naxçıvanski 2-ci Qarabağ süvari alayının komandiri təyin olunur. O, Qarabağda, Şuşada daşnaklara və daxili düşmənlərə qarşı əməliyyatlara rəhbərlik edir. Ölkənin daxili sabitliyinin qorunmasında xüsusi fəallıq göstərir. Əsgəran qalasının daşnak quldurlarından təmizlənməsində Cəmşid Naxçıvanski və onun əsgərləri qəhrəmanlıq nümunələri nümayiş etdirirlər.

Podpolkovnik C.Naxçıvanski xalqına və dövlətinə sədaqətlə xidmət edərək Cümhuriyyət ordusunda milli qoşun hissələrinin yaradılması üçün bilik və təcrübəsini əsirgəmədi.

1920-ci il 28 aprel bolşevik işğalından sonra istedadlı sərkərdənin hərbi fəaliyyəti daim nəzarətdə saxlanılır və izlənilir. Yüksək hərbi biliyə malik olan gənc zabit Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun təklifini qəbul edərək xarici ölkələrə mühacirət etmir. Doğma Vətəni Azərbaycanı və onun ayrılmaz hissəsi Naxçıvanı dünyalar qədər sevdiyindən hərbi fəaliyyətini öz ölkəsində davam etdirir. Məktəb rəisinin köməkçisi və milli dağatıcı diviziyasının komandiri vəzifəsində xidmət edərkən də o, milli hərbçi kadrların hazırlanmasında bilik və bacarığını, zəngin döyüş və nəzəri təcrübəsini əsirgəmir. Daim hərbi təcrübəsini artırmağa çalışan gənc komandirin sərkərdə kimi püxtələşməsində məşhur generallar Səməd bəy Mehmandarovun və Əlağa Şıxlinskinin böyük rolu olur. Məhz böyük sərkərdələrimizin köməyi ilə Azərbaycan dağatıcı diviziyası Zaqafqaziya ordusunun taktiki-təlim məşqlərində birinci yer tutur. Üç müxtəlif qurulușda hərbi xidmət keçən, mərdliklə döyüşən, hərbi ordenlər, mükafatlar alan, milli diviziya yaradan istedadlı sərkərdənin fəaliyyəti yüksək qiymətləndirilir. Azərbaycan SSR-in "Qırmızı Bayraq", "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenləri ilə təltif olunur.

Lakin qırmızı terrorun qara kölgələri - bolşevik cəlladları Mircəfər Bağırov, Lavrenti Beriya Cəmşidi izləyirdi... Xan nəslindən olduğuna görə daim təqib olunan Cəmşid Moskvaya dinləyici kimi M.V.Frunze adına Hərbi Akademiyaya göndərilir və kursu bitirdikdən sonra akademiyada müəllim olaraq saxlanılır. Əvvəlcə kurs rəisi, sonra isə ümumi taktika kafedrasının müdiri təyin olunan Naxçıvanski general-mayor hərbi rütbəsinə layiq görülür.

Aprel işğalından sonra bolşevizmin təqiblərinə məruz qalan, müxtəlif vaxtlarda həbs edilən C.Naxçıvanski, 43 yaşında 1938-ci ilin mayın 20-də Lefortova zindanına atılır. Ağlasığmaz işgəncələrə böyük iradəsi ilə dözən C.Naxçıvanski 26 avqust 1938-ci ildə qapalı keçən hərbi məhkəmənin qərarı ilə güllələnir.

Ümummilli lider Heydər Əliyev ötən əsrin 70-ci illərində yaratdığı hərbi məktəbə qırmızı terrorun qurbanı olmuş sərkərdəzın sərkərdə oğlu C.Naxçıvanskinin adını verməklə onu yenidən yaşatdı. Birinci Dünya müharibəsi cəbhələrində qəhrəmanlıqlar göstərmiş, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradıcılarından biri, milli dağatıcı diviziyasının komandiri olmuş general C.Naxçıvanskinin şərəfli ömür yolu Azərbaycan Ordusunun əsgər və zabitlərinə, bütün gənclərə hər zaman örnəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xalqımıza Böyük Qələbənin sevincini yaşadacağıq!

Uzun lüləli topları, deşilməz zirehi və qarşısına çıxanı tırtılları ilə əzib keçən tanklar və onları idarə edən döyüşçülər müasir müharibələrdə silinməz izlər qoyurlar. Müharibənin gedişində strateji üstünlüklərə malik olan "dəmir atlar" günümüzün ən təsirli döyüş vasitələrindəndir. Onu da qeyd etmək lazımdır ki, bu cür texnikanı idarə etmək böyük məharət tələb edir. "Dəmir atlardan" və bacarıqlı tankçılardan söz düşmüşkən, iki dəfə Sovet İttifaqı qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun adını qeyd etmək yerinə düşər. O, tankın imkanlarını hesablamaqla çətin tapşırıqların öhdəsindən gələrək böyük uğurlara imza atdı. Ancaq Həzi Aslanovdan sonrakı dövrlərdə də tankçılarımız qəhrəmanlıqları ilə dillərə dastan oldular. Belə döyüşçülərimizdən Albert Aqarunov Qarabağ döyüşlərində göstərdiyi şücaəti, igidliyi, qorxmazlığı ilə adını müasir tariximizə qızıl hərflərlə yazdı. Aprel zəfərində də tankçılarımızın rolu danılmazdır.

Düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdən birində ezamiyyətdə olarkən texnikalar üçün təyin olunmuş parkda tanka texniki qulluq göstərən bir qrup hərbi qulluqçu diqqətimi cəlb edir. Hərbi hissənin zabiti Qalibiyyət Əliyevin təklifi ilə hərbi qulluqçularımızla söhbət etmək imkanı qazanırıq. Söhbət zamanı baş gizir Zöhrab Mayılov tanklara texniki qulluğun mütəmadi olaraq göstərildiyini bildirdi. "Hərbi qulluqçu olaraq hər birimiz istənilən an döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirməyə hazır olmalıyıq. Buna görə də, bizlərə təhkim olunmuş silah və texnikanın sirlərinə yaxından bələd olmalı, onların sazlığına və daim döyüşə hazır vəziyyətdə olmasına xüsusi diqqət yetirməliyik. Əgər onlara vaxtlı-vaxtında qulluq göstərilməsə, döyüşün uğurlu nəticələrindən danışmaq çətin olar. Döyüşdə itki vermədən qələbə qazanmağın yeganə yolu hərbi qulluqçuların hərb sənətinə dərindən yiyələnməsidir. Bu səbəbdən komandir heyəti tabeçiliyində olanların bilik və bacarıqlarının təkmilləşdirilməsinə böyük əhəmiyyət verir. Təsdiq edilmiş tədris planına əsasən hərbi qulluqçularımızın texniki, atış və digər sahələrdə biliklərinin artırılması üçün məşğələlər keçirilir. Dərslərdə əldə edilən təcrübə sayəsində düşmənin istənilən təxribatına layiqli cavab vermək mümkündür. Bunun nəticəsidir ki, aprel döyüşlərində hərbi qulluqçularımız düşməni hər cəhətdən üstələdi, məğlubiyyətə uğratdı".



Tank komandiri vəzifəsində xidmət edən gizir Ramal Abbasov bildirdi ki, döyüşdə tankın heyəti vahid şəkildə hərəkət etməlidir. "Qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün bütün heyət arasında qarşılıqlı anlayış olmalıdı. Bu səbəbdən istər təlimdə, istərsə də döyüş şəraitində bütün bilik və bacarıqlarımızı səfərbər edirik. Yarana biləcək problemlərin qarşısını almaq üçün hər an diqqətliyik. İnanıram ki, qısa zamanda xalqımıza Böyük Qələbənin sevincini yaşadacağıq. Bu torpaqlar uğrunda şəhid olan qardaş və bacılarımızın qisasını alacağıq".

Kiçik çavuş Rəcəb Muradov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Aliyev də düşmən tapdağı altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözlədiklərini vurğuladılar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: Əsgərin döyüşə psixoloji hazırlığı.

**Suallar:**
**1. Əsgərin psixoloji hazırlığının məzmunu.**
**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

*Əsgərin psixoloji hazırlığının məzmunu*

**Əsgərin psixoloji hazırlığı:** döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını;

fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı;

döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri;

psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Təcrübə göstərir ki, əsgər öz döyüş hazırlığını tələb olunan anda lazımi dərəcədə həmişə göstərə bilmir. Hələ dünən gündəlik, sakit xidməti şəraitdə yaxşı və əla yerinə yetirilən hərəkətlər bugünkü döyüşdə ya yarımçıq alınır və yaxud heç alınmır. Bu əsgərin psixoloji cəhətdən kifayət qədər hazırlıqlı olmadığının göstəricisidir. Əsgərin psixoloji hazırlığı müasir tələblərə cavab verməli və ordunun döyüş hazırlığı və döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Döyüş əsgərin öz potensiallarını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün və yaxud yoldaşlarının həyatı, döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən - hər şeydən öncə insanın əqidəsindən, onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən, verilmiş məqamda əsgərin emosional vəziyyətindən və səhhətindən asılıdır.

Sadalanmış faktorların məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu, birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını; ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

**Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətləri aşağıdakılardır:**

- tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.)

Döyüşə psixoloji hazırlığın 3 dərəcəsi təsnif olunur:

- aşağı;
- orta;
- yüksək.

**Aşağı dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri:** əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır.

**Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri:** özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır.

**Yüksək səviyyəli psixoloji hazırlığı** isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq istəyi və düşmən üzərində qələbənin qazanılması fərqləndirir. Psixoloji hazırlığın bu səviyyəsində əsgər uzun müddət ola bilməz. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri işə düşür.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

Belə ki, dəqiqədə 140-150 addımlıq gəzinti gümrah əhvalruhiyyə yaradır. Addımın astadan sürətliyə və ya əksinə doğru növbə ilə dəyişməsi isə diqqətin toplanmasına və artmasına səbəb olur. Yuxu ilə mübarizə aparmaq üçün əl dərisinin çimdiklənməsi, başın adamın özü tərəfindən massaj edilməsi və insanın aktivliyini artıran digər hərəkətlər geniş tətbiq olunur. Yuxulama insanda yorğunluğun, psixi və fiziki taqətsizliyin səbəbi olduğuna görə döyüşə psixoloji hazırlığın daxili düşməni sayılır.

*Döyüşə psixoloji hazırlığın əsas üsulları*

**Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:**

- özünəinam və özünətəlqin;
- öz təxəyyülünü idarə etmə;
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

**Özünəinam** - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən əsgərdə onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin necə dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

**Özünütəlqin** - özünə inam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir:

"Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

**Özünütəlqin edərkən bəzi qaydalara riayət etmək vacibdir:**

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmə imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünü tənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilər.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünütəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən, "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə demək lazımdır ki: "Mən gümrah və çalışqanam". Və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə, "Mən gümraham" ifadəsini beyinə yerləşdirmək lazımdır.

**Təxəyyülün (fantaziyanın) idarə edilməsi** isə özünütəlqinin sözlü düsturlarının təsirini əhəmiyyətli dərəcədə artıra bilir. Döyüş postunda təxəyyülünüzü işlətməklə, öz fəaliyyətinizin arzuolunan nəticəsinin obrazını yaratmaq mümkündür. Lazımdır ki, sözlü obrazların məzmununu emosiyalarında canlandırasan. Özünüzə "Mən gümraham" ifadəsini təlqin edərkən, səhər tezdən dan şehinin, təravətinin bədəninizi necə üşütməsini, əzələlərinizin necə gərilməsini təsəvvürünüzə gətirin. Siz o halı hiss etməyə çalışsanız, təsirini anındaca görəcəksiniz. Hərəkətin nümunəsini daha aydın təsəvvürünüzə gətirməklə, sizə özünüzü etalona (ideal döyüşçü, hərəkətlərin qüsursuz icrası) bənzətmək məsləhət görülür. Yəni özünüzü "ən sayıq döyüşçü" rolunda hiss etməyiniz üçün onun ideal hərəkətlərini təsəvvürünüzə gətirin və yamsılama prinsipinə uyğun təkrar edin. "Mən ən sərrast atıcıyam", "Mən ən sayıq kəşfiyyatçıyam" kimi özünütəlqinlər müvafiq ideallar, nümunələri təsəvvürə gətirməklə əsgərin əsl atıcı, kəşfiyyatçı obrazına çevrilməsinə kömək edir. Öz təxəyyülünüzü idarə etməklə döyüş fəaliyyətinin bu və ya digər nəticələrini, postda mümkün olan müxtəlif vəziyyətlərin inkişafını daim beyində "hərlətmək" (üzərində fikirləşmək) olar.

Məsələn: "Əgər divarın o üzündə düşmən varsa deməli, dönməmişdən qabaq divardan 2-3 metr aralanmalı və fikrimi toplamalıyam". Bu cür fəndlər döyüşdə əlverişsiz nəticələri (arzuolunmaz sonluqları) qabaqlamaqla gözlənilməz hallara hazır olmaq imkanları verir. Yaxşı olardı ki, qabaqcadan ekstremal şəraitlərdə mümkün hərəkətlərin planı qurulsun və beyninizdə fikrən "icra edilsin".

**Diqqətin idarə olunması** təxəyyüllə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymarıqsa daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyektə yönəli saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

**Nəfəs almanın** idarə olunması və əzələlərin tonusda saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəs almanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətini əhəmiyyətli dərəcədə təyin edirlər. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəs alma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzun müddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

**Əzələ gərginliyi** əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünə inamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Cəbhəboyu zonadakı hərbi hissələrin birində mədəni-kütləvi tədbir keçirilib

*2018-ci il üçün hazırlıq planına əsasən, şəxsi heyətin mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə cəbhəboyu zonada yerləşən hərbi hissələrin birində mədəni-kütləvi tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində ön xətt mövqelərində xidmət keçən və fərqlənən 100 nəfər hərbi qulluqçunun Tərtər şəhərinə gəzintisi təşkil edilib.

Hərbi qulluqçular şəhər ərazisində yerləşən Heydər Əliyev Mərkəzi, tarixi abidələr və muzeyləri ziyarət ediblər.

## Ovqat

# Yaşayan, yaşadılan hikmət

*Ziyarət müqəddəsliyə mənəvi borcödəmədi. Ömrünü müqəddəsliyin mühafizəsi üçün yaşayanları xatırlamaq, nişanələri önündə sayğı duruşu, onlarla xəyalən kəlmələşmə, bəzən ürkəcək, bəzən duyğusal təmas o ömürlərin ölməzliyinin təsdiqidi...*



Şəhidlik qəhrəmanlıqdı, şəhidlərin hamısı qəhrəmandı; qəhrəmanları ziyarət milli, milli-xəlqi ruhun yaşadılmasıdı. Hər birimiz bu ruhu yaşada-yaşada yaşa doluruq. O qəhrəmanlar - şəhidlər son nəfəsinin yaşında qalır. Oğul şəhid atasının yaşına çatır, oğul atayla yaşdaş olur. Amal yaşadılır - yaşlaşmır, qocalmır, qəhrəmanlıq yaşadılır - yaşlaşmır, qocalmır. Hər birimiz yaşlaşmayan, qocalmayan qəhrəmanlığı düşüncələrdə, söhbətlərdə, təəssüratlarda, Vətənə xidmətdə yaşatmalıyıq ki, xalqın yaşam fəlsəfəsinin üstündən zaman yelləri əsməsin...

Şəhidlər xiyabanında - ruhumuzun ziyarətgahında yenə bu düşüncələrlə başbaşa qalmışdım. Onların birində bir məqam çəkdi diqqətimi: ana azyaşlı uşağıyla şəhidlərin ziyarətindəydi. Kirpikləri daş baxışların örtüyünə dönmüşdü. Şəhidin bacısıdı. Qardaşı şəhid olanda uşağıymış. O vaxtdan üzü bu yana ildə neçə dəfə qardaşıyla ruhən, xəyalən burada kəlmələşir. Şəkil baxışların doğmalığını baxışlarıyla salamlayır. Kövrəlir. Hərdən göz yaşları yanağında közə dönür. Bu uşaq da böyüyəcək. O da hərdən anasıyla, hərdən tək gələcək dayısının ziyarətinə, dayısının şəhid qardaşlarının ziyarətinə. Bu ziyarəti həm də anasına könül ziyarəti biləcək. Bu uşaq böyüyəndə şəhidlərimizin ruhuna gözaydınlığı biləcəyimiz Böyük Qələbənin necə qazanıldığını ata-anasından öyrənəcək. Onda dayısının hansı amal naminə şəhid olduğunu daha əhatəli biləcək. Qardaşı hərbi xidmətə çağırılanda bura onunla gələcək. Qardaşının dayısına ruhən dediyi kəlmələri eşidəndə ürəyi dağa dönəcək. Bu kəlmələri anasının yaşatdığı qəhərə təsəlli biləcək: mən də əsgər gedirəm!

...Şəhidlər xiyabanındaydım. Qərənfilləri köksünə sıxmış 7-8 yaşlı uşaq bir-iki addım atıb dayanır, dönüb arxaya baxırdı; niyəsə tərəddüd edirdi. Onda ata qızının saçlarını oxşadı: "Hamısı sənin əmindi, quzum. Gülləri onlara gətiribsən. Yaxınlaş...". Bu kəlmələrin uşağın düşüncələrini bir mətləbə kökləyəcəyinə zərrəcə şübhə etmədim: şəhidlərin hamısı həmimizin əzizidi!..

Bu şəkil zamanı 13-14 ili qabaqlayan bir məqamın başlanğıcının şəklidi; tarixin şəklidi, tarixi şəkildi...

Ermənilər Ağdamda Əli ilə Bəxtiyarı qətlə yetirəndən üzü bu yana hər ailədə şəhidlikdən, şəhidlərdən danışılır. Körpələr bu söhbətlərin mahiyyətiylə yeniyetmələşir, yeniyetmələr bu söhbətlərin aşıladığı ehtiram işığında gəncləşir. Babası 1994-cü ildə, atası 2016-cı ilin aprelində şəhid olan körpənin dedikləri düşüncələrimi titrətmişdi: böyüyəndə babam kimi, atam kimi mən də əsgər olacam. O ananın oğlunun "Dayım kimi mən də əsgər olacam!" dediyinə zərrəcə şübhə etmirəm; bu yaşda uşaqların yaddaşına hopur belə ziyarətlər. Dayı ziyarətinə gəlirlər, böyüdükcə şəhidləri ziyarətə gələcəklər, kimləri ziyarət etdiklərini anlayacaqlar, bütün qətiyyətiylə əmin olacaqlar ki, şəhidlər əbədiyyətin cığırdaşıdı.

Şəhid analarının, bacılarının, uşaqlarının təsəllisi torpaqlarımızın işğaldan azad edilməsi olacaq. Onda bu ananın yanaqları boyunca süzülən göz yaşlarını özü də, görənlər də şəhidlərin ruhuna gözaydınlığı biləcək...

Neçə il əvvəl bir kitabım nəşr olunmuşdu: "Ziyarətin hikməti". Aradan illər keçəndən sonra daha duyğusallıqla, daha dönməzliklə inanmışam ki, ziyarətin hikməti son nəfəsəcən yaşadılan yaşarı hikmətdi. Gənc dostum Natiq İsayevin Şəhidlər xiyabanında çəkdiyi bu şəkil də yaşarı hikmətin tarixi şəklidi.

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



## Hərbi texnikalar, silahlar

# R-27 aviasiya raketi

R-27 aviasiya raketi (NATO AA-10 Alamo təsnifatlı) sovet istehsallı "Hava-hava" sinifli orta məsafəli idarəolunan raketdir. Raket 1974-1979-cu illərdə Toropov adına "Vımpel" müəssisəsində hazırlanıb. 1979-cu ildə sınağı həyata keçirilib. 1987-ci ildə silahlanmaya qəbul edilib. İstehsalçısı "Artem" və "Vımpel" müəssisələridir. İstismara 1990-cı ildə verilib və əsas istismarçısı Rusiya Hərbi Hava Qüvvələridir. Onun baza modeli K-27-dir. R-27R (PARQON), R-27EP (PARQON), R-27T (İKQON), R27P (PRQON), R-27EP (PRQON) kimi modifikasiyaları da mövcuddur.

Uzaq və yaxın hava döyüşləri zamanı R-27 raketi təyyarə və pilotsuz uçuş aparatlarının və qanadlı raketlərin ələ keçirilməsini təmin edir.

Raketlər Su-27, Su-33, Su-34, Su-35, MiQ-29, Yak-141 təyyarələri ilə daşınır. Raketin uzunluğu 3795- 4490 mm, qanadlarının açılması 774 (803) mm-dir. Rulun açılması 972 mm, raketin çəkisi 253 (350) kiloqramdır. Buraxılma uzaqlığı 50 (90-100) kilometrdir. Mühərrik qurğusu iki rejimlidir (RDTTO). Tuşlama sistemi radiokorreksiyalı inersiyal + istiliknuri yarımaktiv radiolokasiyalı QSN passiv RQSN-dir. Hədəfə olan sürəti saatda 3500 kilometrdir. R-27 raketinin uçuş uzaqlığı 1-110 kilometrə qədər, döyüş hissəsi 39 kiloqramdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Yaponiya və Böyük Britaniya birgə təlimlər keçirəcək



Böyük Britaniyanın "Albion" əsas universal desant gəmisi Yaponiya özünümüdafiə qüvvələrinin heyəti ilə birlikdə təlimlər keçirmək üçün Tokioya gəlib.

Bu, həmin gəminin Yaponiyaya ilk səfəridir. Gəminin özünümüdafiə qüvvələri ilə birlikdə dəniz desantının çıxarılması təlimlərində iştirak edəcəyi bildirilir.

Böyük Britaniya gəmisinin kapitanı Tim Neyld deyib ki, bu səfər Kral donanmasının Asiya-Sakit okean regionuna marağının dəyişməzliyini bir daha təsdiq edir. T.Neyld əlavə edib ki, "Albion" Yaponiya tərəfi ilə dənizdə Şimali Koreya gəmilərinə qeyri-qanuni yük köçürmələrinin monitorinqində də əməkdaşlıq edib.

Yaponiya və Böyük Britaniya müdafiə sahəsində əməkdaşlığın möhkəmləndirilməsi barədə ötən il imzalanmış razılaşma çərçivəsində birgə təlimlər keçirirlər. "Albion" cari ildə Yaponiya limanlarına daxil olan ikinci Böyük Britaniya gəmisidir.

### Ukrayna Hava Qüvvələri 30 modernləşdirilmiş döyüş təyyarəsi alacaq



Ukrayna Hava Qüvvələri 2018-ci ildə təxminən 30 modernləşdirilmiş təyyarə alacaq. Bu fikri yerli mətbuata müsahibəsində Ukrayna Hava Qüvvələri komandanı general-polkovnik Sergey Drozdov söyləyib.

"Ukroboronprom" konserninin təmir və modernləşdirilməsi işləri başa çatdıqdan sonra bu il 30 ədəd MiQ-29 və Su-27 döyüş təyyarələri, Su-25 hücum təyyarələri almağa hazırlaşırıq. Yeri gəlmişkən Odessa zavodu indi Su-24 MP təyyarələrinin modernləşdirilməsi üzərində işləyir", - deyə Drozdov əlavə edib.

Onun sözlərinə görə, Ukraynanın müdafiə sənayesi müəssisələrində görülən işlər sayəsində yaxın gələcəkdə güclü radioelektronika və yanğın təsiri şəraitində yüksəkliklərin və sürətlərin bütün səviyyələrində hava hücumuna qarşı effektiv mübarizə aparmağa qadir olan silahlar alınacaq.

### Taliban yaraqlıları Əfqanıstanda hərbi bazaya hücum edərək 40 əsgər öldürüb



Taliban yaraqlılarının Əfqanıstanın Uruzqan əyalətinin Çinartu rayonundakı hərbi bazaya hücumu nəticəsində 40 əsgər həyatını itirib.

Çinartu rayonunun polis rəisi Əhtar Məhəmmədin sözlərinə görə, toqquşma zamanı talibançılardan da ölənlər var.

Hücum nəticəsində onlarla əsgərin yaralandığı və girov götürüldüyü deyilir.

### Misir hərbçiləri 52 ekstremisti məhv edib



Misir Silahlı Qüvvələrinin və Daxili İşlər Nazirliyinin Sinay yarımadasında və Liviya sərhədləri yaxınlığında birgə keçirdiyi "Sinay-2018" əks-terror əməliyyatları nəticəsində 52 ekstremist məhv edilib.

Misir Silahlı Qüvvələrinin məlumatına görə, ölkənin Hərbi Hava Qüvvələri sərhədi qeyri-qanuni keçməyə cəhd göstərən silah-sursatla dolu 15 avtomobilə hücum edib və 39 xüsusi təhlükəli ekstremist öldürülüb.

Sinay yarımadasının şimalında Əl-Ariş şəhərində keçirilən daha bir əməliyyat zamanı isə təhlükəsizlik qüvvələri 13 ekstremisti məhv edib. Bundan əlavə, Sinayın şimalında və mərkəzi hissəsində 49 xüsusi təhlükəli cinayətkar saxlanılıb.

**AZƏRTAC-ın materialları əsasında**

# "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin iştirakçıları arasında idman yarışları keçirilib

*"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsi çərçivəsində hərbi gəmilərin heyətləri arasında voleybol yarışı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

İlk görüşdə İran komandası ilə qarşılaşan Azərbaycan hərbi dənizçiləri qalib gəlib. Qazaxıstan və Rusiya komandalarının oyunu da Qazaxıstan dənizçilərinin qələbəsi ilə başa çatıb.

Final oyunlarında isə İran komandası Rusiya dənizçilərinə, Azərbaycan hərbçiləri isə Qazaxıstan komandasına qalib gəlib.

Dostluq turnirinin yekununa görə Azərbaycan birinci, Qazaxıstan ikinci, İran komandası isə üçüncü yerə layiq görülüb.

Qalib komandalara kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib. Sonda xatirə şəkli çəkilib.

* * *

"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak edən ölkələrin komandaları arasında futbol yarışı keçirilib.

Birinci mərhələdə İran komandası ilə qarşılaşan Azərbaycan hərbi dənizçiləri qalib gəlib. Qazaxıstan və Rusiya komandalarının oyunu isə Rusiya dənizçilərinin qələbəsi ilə başa çatıb.

Final oyunlarında Azərbaycan komandası Rusiyalı hərbi dənizçilərə, İran dənizçiləri isə Qazaxıstan komandasına qalib gəlib.

Beləliklə futbol üzrə dostluq turnirində Azərbaycan birinci, Rusiya ikinci, İran komandası isə üçüncü yerə layiq görülüb.

Qalib komandalara kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib. Sonda xatirə şəkli çəkilib.

*Fiziki hazırlıq*

# "Bu amalın əsgəriyik!"



Günün nizam qaydası əsgərlərin gündəlik fəaliyyətini müəyyənləşdirir. Fiziki hazırlıq da günün nizam qaydasının ayrılmaz və önəmli hissələrindəndir. Əsgərlərin döyüş qabiliyyətinin artırılmasında, sağlamlığının möhkəmləndirilməsində fiziki hazırlığın müstəsna rolu var. İdman tədbirləri zamanı əldə edilən güc şəxsi heyətin döyüş qabiliyyətinə müsbət təsir göstərir. Fiziki hazırlıqla məşğul olan hərbi qulluqçu daha möhkəm, dözümlü və yüksək əhval-ruhiyyədə olur. Sağlam bədənə, fiziki gücə malik olan əsgərlər döyüş tapşırıqlarını daha çevik, dəqiq və vaxtında yerinə yetirirlər. Bu səbəbdən də ordu quruculuğunda şəxsi heyətin fiziki hazırlığına mühüm yer ayrılır. Bütün hərbi hissələrdə əsgər və zabitlərin idmanla məşğul olması üçün idman meydançaları, müasir avadanlıqlarla təchiz olunmuş trenajor otaqları mövcuddur.

Bu gün ordumuzda müxtəlif idman turnirləri və birinciliklər keçirilir. Belə kütləvi idman tədbirləri şəxsi heyətin idmana olan marağını daha da artırır, mənəvi-psixoloji hazırlığının yüksəldilməsində müsbət rol oynayır.

"N" hərbi hissəsinə gəlişimiz idman saatına təsadüf edir. Şəxsi heyət leytenant Sərxan İmanovun nəzarəti altında idman şəhərciyində düzülüb. Zabit şəxsi heyəti yoxladıqdan sonra fiziki hazırlıq məşğələsinə başlayır. Əsgərlər idman hərəkətlərini çevik və həvəslə yerinə yetirirlər. İstər paralel qollarda, istər turnikdə dartınmanı, istərsə də əzələləri inkişaf etdirmək üçün edilən hərəkətləri əsgərlərin hər biri bacarıqla yerinə yetirir.

"Hərbi qulluq edən hər bir gənc xidmətinə sevgi ilə yanaşır. Gün ərzində keçirilən bütün məşğələlərdə həvəslə iştirak edirlər. Eynilə fiziki hazırlıq saatlarında da fəallıq göstərirlər. Hər biri yaxşı başa düşür ki, qarşılarında bir məqsəd var, torpaqlarımızın işğaldan azad olunması üçün döyüş əmrinə hazır olmaq. Bunun üçün də hərbi biliklərlə yanaşı, fiziki cəhətdən də güclü olmalıdırlar ki, düşməni məhv edə bilsinlər. Ona görə də hər biri daim öz üzərində çalışır, fiziki göstəricilərini artırmaq üçün mütəmadi idmanla məşğul olurlar. Yay aylarında hava şəraiti imkan verdiyi üçün fiziki hazırlıq dərslərini idman şəhərciyində keçiririk. Buna baxmayaraq yataqxanamızda trenajor otaqlarımız da fəaliyyət göstərir. Orada müasir idman avadanlıqları quraşdırılıb. Əsgərlər idman saatlarından başqa asudə vaxtlarında da orada məşq edə bilirlər", - leytenant S.İmanov deyir.

Fiziki hazırlıq dərsi yekunlaşdıqdan sonra əsgərlərlə qısa söhbət edirik. Söhbətləşdiyim əsgərlər arasında da həm ölkə daxilində, həm də beynəlxalq arenada uğurlar qazanmış idmançıları tanıyıram. İdmanın yunan-Roma güləş növü üzrə respublika 2-cisi, Macarıstanda keçirilən turnirin bürünc mükafatçısı - İsmayıl Şahbarov, ağır atletika idman növü üzrə Avropa çempionu - Dadaş Dadaşbəyli, qaydasız döyüş üzrə Bakı və respublika birincisi, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş turnirin qalibi - Hacı Hacızadə və digərləri hərbi xidmətləri dövründə də məşqlərini davam etdirdiklərini vurğuladılar. "Hərbi hissədə bütün təminatlarımız qaydasında olduğu kimi, idman məşqləri etmək üçün də şəraitimiz var. Həm idman şəhərciyimiz, həm də trenajor otaqlarımız imkan verir ki, məşqlərimizi davam etdirək. Bu cür yüksək qayğıya və diqqətə görə Ali Baş Komandanımıza minnətdarıq. Döyüş hazırlığımızın və fiziki göstəricilərimizin hər zaman yüksək olması üçün var qüvvəmizlə çalışırıq. İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa hər an hazırıq", - əsgərlər deyirlər.

Yorulmadan, həvəslə idmanla məşğul olan əsgərlərlə söhbətdən xoş təəssüratlarla ayrılıram. Şahidi oluram ki, əsgərlər fiziki hazırlıq dərslərinə diqqət göstərir, böyük həvəslə idmanla məşğul olurlar. Ordunun gücü əsgərin döyüş və mənəvi-psixoloji hazırlığından da asılıdır. Ordumuz belə ordudur, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əsgərlərdən biri belə dedi: "Bu amalın əsgəriyik!".

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# İdman

## Azərbaycan batutçuları dünya kubokunda çıxış ediblər

Batut üzrə Azərbaycan yığma komandasının üzvləri Yaponiyanın Mayebaşi şəhərində keçirilən dünya kuboku yarışında iştirak ediblər.

Qadın və kişi gimnastlarımız həm fərdi, həm də sinxron proqramda güclərini sınayıblar. İdmançılarımızdan ən yaxşı nəticəni sinxron cütlüklərin yarışında Ruslan Ağamirov və İlya Qrişunin göstəriblər. Gimnastlarımız final mərhələsində topladıqları 45,250 xalla altıncı yerdə qərarlaşıblar.

Turnirdə 19 ölkədən ən güclü batutçular mübarizə aparıblar.

## Şəhriyar Məmmədyarov "Grand Chess Tour"da çıxış edəcək

Avqustun 11-dən 15-dək Sent-Luis şahmat klubunda dünyanın aparıcı şahmatçılarının iştirakı ilə "Grand Chess Tour" turnirinin rapid və blits yarışları üzrə üçüncü mərhələsi keçiriləcək.

Yarışlarda ənənəvi "Biel International Chess Festival"ın baş turnirinin qalibi azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov da iştirak edəcək.

Turnirdə həmyerlimizlə yanaşı, amerikalılar Fabiano Karuana, Uesli So, Hikaru Nakamura, Lenyer Dominqes, fransız Maksim Vaşye-Laqrav, rusiyalılar Sergey Karyakin, Aleksandr Qrişşuk, erməni Levon Aronyan və hindistanlı Vişvanatan Anand mübarizəyə qoşulacaqlar.

"Grand Chess Tour"un üçüncü mərhələsinin ümumi mükafat fondu 150 min ABŞ dolları təşkil edir.

## Azərbaycanlı gənc ABŞ-da keçirilən gimnastika üzrə beynəlxalq yarışda bürünc medal qazanıb



29 iyul - 2 avqust tarixlərində Arizona ştatının Finiks şəhərində keçirilmiş aerobika gimnastikası üzrə beynəlxalq turnirdə həmyerlimiz Fərəh Vəliyeva AG1 kateqoriyasında (12-14 yaş) ABŞ çempionu adına layiq görülüb və topladığı balların sayına görə 15 ölkəni təmsil edən 43 iştirakçı arasında bürünc medala sahib olub.

ABŞ-ın Milli Aerobika Çempionatları Assosiasiyası (ANAC) tərəfindən təşkil olunmuş illik yarışda aerobika təmsilçiləri AeroDans kateqoriyasının fərdi, qarışıq cütlük, üçlük və qrup hərəkətlərində çıxış ediblər. 1983-cü ildən fəaliyyət göstərən Milli Aerobika Çempionatları Assosiasiyası dünya üzrə idman aerobikası və aerobik gimnastika növlərini təsis etmiş təşkilatdır. Builki turnirdə ABŞ, Kanada, Yaponiya, Sinqapur, Avstraliya, Yeni Zelandiya, Hindistan, Argentina, Çin, Almaniya, Peru, Kolumbiya, Venesuela, Meksika və Uruqvay təmsil olunub.

## U-19-un Bakıda toplanışı olacaq

Avqustun 8-dən 15-dək Bakıda U-19 qızlardan ibarət Azərbaycan yığmasının təlim-məşq toplanışı keçiriləcək.

Hazırlıq prosesinə futbolçulardan Elvira Əsgərzadə, Sudə Topçu, Minarə Gözəlova, Ayşən Əhmədova, Cəmilə Hüseynova, Həqiqət Qasımova, Lamiyə Qurbanova, Vüsalə Seyfətdinova, Öznur Tas, Sona Rəhimova, Anna Abulaşvili, Rövşanə Sərdarlı, Aytac Nemətova, Beyzanur Aslan, Bərfin Yılmaz, Yasəmən Başol, Nino Qurqenidze və Umnisə Əliyeva heyətə daxil ediliblər.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 518
Nüsxə 3525